**Bakıda qanunsuz fəaliyyət göstərən ictimai iaşə müəssisəsinin aşkarlanmasına dair məlumat**

**(3 noyabr 2023)**

Daxil olan məlumat əsasında Bakı şəhəri, Nəsimi rayonu, A.Məhərrəmov küçəsində yerləşən, fiziki şəxs Bədəlova Aynurə Kərəm qızına məxsus “Papanin” kafesində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib.

Baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edilib. Müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, işçi heyətin xüsusi geyim forması ilə təmin olunmadığı, eləcə də gigiyenik təlimlərə cəlb edimədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağla qanunvericiliyə uyğun olaraq müəssisə rəhbərliyi barəsində inzibati protokol tərtib edilib, müəssisənin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb.